**TEYMUR ƏLİYEV**

# BİP-BİP



**AZƏRBAYCAN UŞAQ VƏ GƏNCLƏR ƏDƏBİYYATI NƏŞRİYYATI**

**BAKI-1959**

## BİP-BİP KİMDİR?

Hardan gəlir bu səs
deyin,
Qaça-qaça, uça-uça,
Tələsərək, yeyin-yeyin?
Yorulmur heç, deyir
bizə:
Bip, bip, bip, bip,
bip, bip.

Tanışdırmı bu səs
sizə?—
Kimdir, nədir səhər,
axşam



Dincəlmədən,yorulmadan
Hey oxuyur:
Bip, bip, bip, bip, bip, bip...

Bəlkə quşdur: şanapipik,
Ala-bəzək, uzundimdik,
Başına da taxıb daraq,
Kol üstündə oxuyaraq
Salamlayır bizi belə:
Bip, bip, bip, bip, bip, bip.



Yüz-yüz, min-min avtomobil
Küçələrdə qaça-qaça,
Adamların arasından
Özünə yol aça-aça
Qorxusundan haray salır,
Həm oxuyur, həm də çalır:
Bip, bip, bip bip, bip, bip.



Bəlkə Xəzər dənizində
Dalğaları yara-yara
Yaxınlaşan gəmilərdir,
Xəbər verir adamlara:
Qazaxıstan çöllərindən
Bakıya çox taxıl gəlib,
Bip, bip, bip, bip, bip, bip.





Bəlkə də o, paravozdur,
Yola düşür ağır-ağır,
Fışıldayır, yüküm çoxdur,—
Salır birdən çığır-bağır.
Çarxlar qaçır səs salaraq:
Taraq-taq-taq, taraq-taq-taq.
Paravoz da həvəslənib
Bərk fit çalır:
Bip, bip, bip, bip, bip, bip.



Bəlkə... bəlkə səhər-səhər
Moskvanın saatıdır
Hər tərəfə verir xəbər:
— İndi saat düz altıdır,
Bip, bip, bip, bip, bip, bip...

Bizim Bip-Bip nə quş deyil,
Nə gəmi, nə avtomobil.
Quşlar ondan yavaş uçur,

Bip-Bip qonmur ağaclara,
Dayanmır heç, birbaş uçur...
Saat yatır, Bip-Bip yatmır,
Nə paravoz, nə də maşın
Yüyürməkdə ona çatmır.

Bip-Bip uçur axşam-səhər,
Çatmaz ona təyyarələr.
Bəs o kimdir?
Bip-Bip nədir?

Hara uçur, hara gedir?..
Hey danışır, deyir bizə:
Bip, bip, bip, bip, bip, bip.

İndi gəlin qulaq asın,
Heç kəs yerdən danışmasın
Bizim Bip-Bip dostumuza
verək söz.
Nə danışır görək özü?

# BİP-BİPİN SÖHBƏTİ

—Mənim kiçik ulduzlarım,
Oğullarım və qızlarım,
Aydan, Gündən, ulduzlardan
Gətirmişəm salam sizə;



Tanış olaq: Bip-Bip mənəm,

Yazın məni dəstənizə.

Soruşsalar deyərsiniz

Sizə Bip-Bip

Qonaq gəlib.

Qulaq asın söhbətimə.

Milyon-milyon illərdi ki,

Ay gəzirdi göylərdə tək;



Darıxırdı, yoldaşı yox,
Sıxılırdı ürəyi bərk,
Deyinirdi öz-özünə:

—Heç kəs məni salmır yada,
Niyə yoldaş tapılmayır
Məndən ötrü bu dünyada?

Niyə heç kəs soruşmayır:
„Dərdin nədir, söylə, bilək?"
Axı, Yerin başına mən
Nə vaxtacan dolanım tək?!

Darıxmayım bəs nə edim?
Yolum çətin, yolum uzaq,
Nə gələn var, nə gedən var,
Heç kəs olmur mənə qonaq.

Ay baxırdı yer üzünə,

Tutulurdu qaşqabağı;

Deyindikcə öz-özünə

Saralırdı al yanağı.

Doğrusu, lap nahaq yerə

Dərd çəkirdi Ay bu qədər,

Axı, onu heç bir zaman

Unutmayıb yerdəkilər.



# AYIN KİÇİK QARDAŞLARI

Ay buludlar arasından
Qorxa-qorxa çıxan zaman,
Bizə tərəf baxan zaman

Qoca alim teleskopa
Zilləmişdi gözlərini;
O görürdü orda Ayın
Dağlarını, düzlərini.
Aya uçmaq yollarını
Axtarırdı neçə alim,

Bəziləri düşünürdü:
Əvvəl Aya uçacaq kim?



Bəzən qoçaq uşaqların
Yuxusuna girirdi Ay,
Adam kimi danışırdı,
Onlara əl verirdi Ay,
Deyirdi ki, uçun gəlin,
Qoymasalar, qaçın gəlin.,

Göy üzündə qalmayanda
Ayın heç bir nişanəsi,
Uşaqların dostu şair
Yazırdı „Ay əfsanəsi".

Elə bil ki, göy dənizdə
Yelkən açıb üzürdü Ay,
Buludların arasından
Hərdən Yeri süzürdü Ay.



Nə faydası? O görmürdü,

Bilmirdi ki, yerdə nə var,

Bilmirdi ki, ona qardaş,

Göndərəcək mərd adamlar.

İllər ötdü, vaxt yetişdi:

Ayağını üzüb yerdən,

Ayın kiçik qardaşları

Yola düşdü SSSR-dən.

Dallarınca bütün ellər,
Xoş nəğməli şirin dillər
Söylədilər: uğur olsun!
Dedilər ki, ulduzlardan
Tez-tez verin bizə xəbər.

Keçdi günlər, keçdi aylar,
Uçmaq vaxtı çatdı mənə.
Yola düşdüm, gəlib çıxdım
Mən ulduzlar aləminə.

Hər tərəfdən yağış kimi
Üstümə toz yağa-yağa,
Başladım mən Ay tək Yerin
Ətrafına dolanmağa.

İndi hər kün burdan sizə
Göndərirəm təzə xəbər,
Mən deyirəm gəlmə-gəlmə,
Başa düşür yerdəkilər:
Bip, bip, bip, bip, bip, bip.

Qəribədir burda göylər,—
Nə bulud var, nə də hava;
hara baxsan ulduzlardır,
Uçuşurlar boşluqlarda
Bir-birini qova-qova.

Hələ Günəş—nur babamız,
Nə qədər də mehribandır!
Ulduzların arasında
O, ən güclü pəhləvandır.



Salamlayır o hər səhər
Dostlarını gülə-gülə,
Ancaq onun alovundan
Burda çox şey dönür külə.

Onu görcək itirmişdim
Mən özümü lap az qala.
Günəş baba sual verdi,
Soruşdu tez:
—Kimsən, bala?

De, sən hara, bura hara,
Səni hardan göndəriblər
boşluqlara?

Dedim ki, mən
Uçub gəldim
Bol günəşli bir ölkədən.
Çəkicim var, orağım var,
Sən baxanda yanır par-par

Mən də yerin sirdaşıyam,
Ayın kiçik qardaşıyam.
Sənə salam gətirmişəm,
Əziz baba, yer üzündən,
Mənim böyük Vətənimdən,
İnsanlardan və... özümdən.



Günəş baba gülümsədi,
Məhəbbətlə mənə baxdı:
Öz qızılı tellərindən
Boynuma bir çələng taxdı,
Dedi ki, sən
Xoş gəlmisən
Bu yerlərə, Bip-Bip bala!
Hələ bunun boyuna bax,
Ulduz olub lap az qala!..

Məni görcək sevindi Ay,
Tez qızardı yanaqları,
Göstərdi öz sinəsində
Gen düzləri, dik dağları.

# UÇUN AYA, ULDUZLARA!

Mənim kiçik ulduzlarım,
Oğullarım və qızlarım.
Mən Günəşin, ulduzların
Çox sirrini açmamışam,
Uzaq-uzaq boşluqlara
Qanadlanıb uçmamışam.
Siz böyüyün,
Tez böyüyün,
Boşluqları yara-yara
Uçun Aya, uçun Marsa,
Yollar açın ulduzlara!
Göy üzündə nələr varsa
Sirlərini açın, deyin!



Sizi mənim nəvələrim
Aya, Marsa gətirəcək,
İndi yuxu görənləri
Arzusuna yetirəcək!..

Birdən gözdən itdi Bip-Bip,
Yenə uçub getdi Bip-Bip,
Uzaqlardan gəldi səsi;
Belə idi hər kəlməsi:
Bip, bip, bip, bip, bip, bip...

**MƏKTƏB YAŞINA ÇATMAMIŞ UŞAQLAR ÜÇÜN**

**Əliyev Teymur Suleyman oğlu**

B İ P-B İ P

Redaktoru İlyas Tapdıqov

Bədii redaktoru Y. Ağayev

Texn. redaktoru V. Avadeyeva

Korrektoru L. Balayeva

Çapa imzalanmış 14/III 1959-cu il. Formatı 70x92—2=2,34 ç. v. Uç-nəşr. v. 2,2. FQ 10545. Tirajı 20000. Sifariş 81. Qiyməti 1 man. 05 qəp.

Uşaqgəncnəşr. Bakı, Fioletov küçəsi, 8.

Azarbaycan SSR Mədəniyyət Nazirliyiıin .”Qızıl Şərq" mətbəəsi. Bakı. Həzi Aslanov küçəsi, 80.